TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# Təhsildə Keyfiyyət Təminatı Agentliyinin 2021-ci ildə görülmüş işlərə dair hesabatı

2021

## MÜNDƏRİCAT


1. Giriş ..... 2
1.1. Agentlik haqqında ümumi məlumat ..... 2
2. İl ərzində görülmüş işlər ..... 4
2.1. Tanınma ..... 4
2.1.1. Xarici kvalifikasiyaların tanınması ..... 4
2.1.2. Qeyri-formal və informal təhsilin tanınması ..... 5
2.2. Keyfiyyət təminatı ..... 7
2.2.1. Akkreditasiya və lisenziya ..... 7
2.2.2. Təlim və metodologiya ..... 8
2.3. Hüquqi təminat ..... 9
2.3.1. Hüquqi məsələlərin tənzimlənməsi ..... 9
3. İl ərzində görülmüş digər işlər ..... 10
3.1. Məktəb inspeksiyası ..... 10
3.2. Ölkədə elmi-tədqiqat üzrə cari vəziyyətin təhlili ..... 11
3.3. PR/marketinq və insan resursları ..... 11
3.3.1. PR/marketinq ..... 11
3.3.2. İnsan resursları ..... 12

## 1. Giriş

- Agentlik ölkə başçısının 29.12.2019-cu il tarixli 907 nömrəli Fərmanı ilə yaradılmış və **09.01.2020**-ci ildə dövlət qeydiyyatına alınmışdır.
- Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malikdir.
- Agentlikdə müvafiq ştat vahidi üzrə **41** nəfər əməkdaş çalışır.
- Agentliyin ləğvini və ya yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

### 1.1. Agentlik haqqında ümumi məlumat

**Əsas hədəflər**

- Azərbaycan Respublikasında effektiv keyfiyyət təminatı sisteminin fəaliyyətini təşkil etmək;
- Keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini formalaşdırmaq;
- Müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik rəqabətqabiliyyətli mütəxəssislərin əmək bazarına çıxışına dəstək göstərmək.

**Əsas fəaliyyət istiqamətləri**

- Təhsil müəssisələrinin və təhsil proqramlarının akkreditasiyasını həyata keçirmək;
- Təhsil müəssisələrində DKT sistemlərinin qurulması və inkişafı ilə bağlı məsləhət və metodiki dəstək xidmətləri təşkil etmək;
- Təhsil müəssisələrinin nüfuzunun və mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasını təşviq etmək;
- Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını həyata keçirmək;
- Peşə təhsili üzrə qeyri-formal və informal təhsilin tanınmasını həyata keçirmək.

**Hüquq və vəzifələri**

- Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsini təmin etmək;
- Keyfiyyət təminatı mövzusunda fərdlərin səriştələrinin artırılması üzrə konfranslar, müşavirələr, seminarlar, təlimlər keçirmək və digər tədbirlər təşkil etmək;
- Qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək.

## Agentliyin strukturu



## 2. 2021-ci il ərzində görülmüş işlər

- Tanınma
- Keyfiyyət təminatı
- Məktəb inspeksiyası
- PR/marketinq və HR

### 2.1. Tanınma

- Xarici kvalifikasiyaların tanınması
- Qeyri-formal və informal təhsilin tanınması

### 2.1.1. Xarici kvalifikasiyaların tanınması

3021 müraciət olmuş, bunlardan **75%-i müsbət** (2278), **25%-i mənfi** (743) təsdiqlənmişdir. Müraciətlərə orta baxılma müddəti **19** iş günü olmuşdur:

- Yanvar: 199 müraciət, 138 müraciət müsbət, 61 mənfi, ortalama baxılma müddəti – 21 gün.
- Fevral: 274 müraciət, 204 müraciət müsbət, 70 mənfi, ortalama baxılma müddəti – 14 gün.
- Mart: 205 müraciət, 150 müraciət müsbət, 55 mənfi, ortalama baxılma müddəti – 20 gün.
- Aprel: 246 müraciət, 179 müraciət müsbət, 67 mənfi, ortalama baxılma müddəti – 16 gün.
- May: 258 müraciət, 193 müraciət müsbət, 67 mənfi, ortalama baxılma müddəti – 16 gün.
- İyun: 208 müraciət, 144 müraciət müsbət, 64 mənfi, ortalama baxılma müddəti – 15 gün.
- İyul: 257 müraciət, 219 müraciət müsbət, 38 mənfi, ortalama baxılma müddəti – 14 gün.
- Avqust: 281 müraciət, 208 müraciət müsbət, 73 mənfi, ortalama baxılma müddəti – 23 gün.
- Sentyabr: 310 müraciət, 239 müraciət müsbət, 71 mənfi, ortalama baxılma müddəti – 22 gün.
- Oktyabr: 338 müraciət, 257 müraciət müsbət, 81 mənfi, ortalama baxılma müddəti – 23 gün.
- Noyabr: 302 müraciət, 235 müraciət müsbət, 67 mənfi, ortalama baxılma müddəti – 19 gün.
- Dekabr (14.12.2021-ci il tarixinə qədər): 143 müraciət, 111 müraciət müsbət, 32 mənfi.

Bundan əlavə:

- Qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və yerli kontekstdə tətbiqi məqsədilə 5 beynəlxalq təlimdə, həmçinin **2 vebinar** və **1 konfrans**da iştirak edilmişdir.
- Arxiv bazasında mövcud olan fiziki sənədlərin (**22000** -dən çox sənəd) elektronlaşdırılması həyata keçirilmişdir (könüllülər cəlb olunmaqla);
- Xaricdə ali təhsil almış tələbələrə ölkəmizin əmək bazarına giriş imkanını artırmaq, eyni zamanda, işəgötürənlərin işaxtaranlarla daha rahat şəkildə əlaqələndirilməsinə töhvə vermək məqsədilə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin **kadr bankı** yaradılmış və istifadəyə verilmişdir (13.08.2021);
- Azərbaycan Tələbə və Məzunlar Platforması (ASAP) təşkilatçılığı ilə keçirilən 05.08.2021-ci il tarixli görüşdə Təhsildə Keyfiyyət Təminatı Agentliyi təmsil olunmuşdur və xarici ali təhsil ixtisaslarının tanınması mövzusunda **təqdimat** həyata keçirilmişdir;
- Xarici ali təhsil ixtisaslarının tanınması mövzusunda 27.09.2021-ci il tarixində yerli ali təhsil müəssisələrinin nümayəndələri üçün **onlayn təlim** keçirilmişdir;

- Xarici ali təhsil ixtisaslarının tanınması mövzusunda vətəndaşların video-formatda qəbuluna başlanılmışdır;
- Agentliyin **taninma.az** keçidi istifadəyə verilmişdir (06.05.2021);
- Elektron ərizə sistemində **"Bizə yazın"** ismarıc qutusu istifadəyə verilmişdir (22.09.2021);
- Elektron ərizə sistemində **"Bizi qiymətləndirin"** funksiyası istifadəyə verilmişdir (29.10.2021);
- Tanınma haqqında şəhadətnamələrin həqiqiliyini müəyyən etmək məqsədilə myGov elektron portalında **"Xarici diplomlarım"** xidməti istifadəyə verilmişdir (19.11.2021);
- Təhsildə Keyfiyyət Təminatı Agentliyinin rəsmi saytında xarici ali təhsil ixtisaslarının tanınması mövzusunda **20-dən çox informativ material** paylaşılmış, habelə, AzTV (eləcə də AzTV radio), İctimai TV, Xəzər TV, ARB və ARB 24 televiziya kanallarına,Təhsil TV, Baku TV, REAL TV və b. internet səhifələrinə müsahibələr verilmişdir.

### 2.1.2. Qeyri-formal və informal təhsilin tanınması

- **Cari ildə qiymətləndirmə və tanınma həyata keçirilmiş ixtisaslar üzrə statistika:**

| İxtisasın adı | Müraciət Sayı | İlkin baxış mərhələsindən keçmiş | Test imtahanı mərhələsində iştirak etmiş | Praktiki imtahanda iştirak etmiş | Sertifikat sayı | Diplom sayı |
|---|---|---|---|---|---|---|
| Bərbər | 29 | 27 | 25 | 11 | 31 | 2 |
| Plastik boru qaynaqçısı | 4 | 2 | 2 | 2 | 18 | 2 |
| Qənnadçı-Şirniyyatçı | 32 | 20 | 16 | 13 | 116 | 9 |
| Mobil telefonların təmiri ustası | 56 | 8 | 2 | 2 | 1 | 0 |
| Aşpaz | 12 | 12 | 4 | 3 | 8 | 0 |
| **Cəmi** | **133** | **69** | **49** | **31** | **174** | **13** |

- Cari il ərzində 5 ixtisas üzrə (Bərbər, Plastik boru, Mobil telefonların təmiri ustası, Qənnadçı-Şirniyyatçı, Aşpaz) imtahanlar təşkil olunmuş və vətəndaşlara **174 sertifikat**, **13 diplom** təqdim olunmuşdur;
- 20 nəfərdən ibarət **ekspert bazası** yaradılmışdır;
- **7 ixtisas üzrə 1457 sual, 107 tapşırıq** hazırlanmış və əmək bazarının nümayəndələri tərəfindən bütün sual və tapşırıqların ekspertizası aparılmışdır.

**Əməkdaşlıq:**

- Cari il ərzində ümumilikdə **17** özəl müəssisə ilə əməkdaşlıq edilmiş, **10** müəssisə ilə müqavilə bağlanmış;
- **30** müəssisə ilə əməkdaşlıq istiqamətləri üzrə görüşlər keçirilmiş;
- Cari ildə **96** müəssisənin iştirakı ilə əmək bazarının təhlilinə dair sorğu həyata keçirilmiş;
- İyul ayında özəl sektor nümayəndələrinin iştirakı ilə **təltifetmə mərasimi** təşkil olunmuşdur.

**Hüquqi baza:**

- Ərizəçi şikayətlərinə baxılması məqsədi ilə Apelyasiya Komissiyası yaradılmışdır;
- Apelyasiya Komissiyasının əsasnaməsi təsdiq edilmişdir;
- QFİTT üzrə Qiymətləndirmə Metodologiyası keçən dövrün təcrübəsinə əsasən yenidən redaktə edilmişdir;
- QFİTT üzrə Qiymətləndirmə Komissiyasının əsasnaməsi təsdiq edilmişdir;
- QFİTT üzrə sertifikat, diplom və diplom əlavəsi formaları təsdiq edilmişdir.

**Məlumatlılığın artırılması:**

- QFİTT üzrə buklet və kataloqların hazırlanması;
- Təhsil sənədi əldə etmiş şəxslərin təltifetmə mərasimi;
- "Rebuild of Karabagh" sərgisində iştirak;
- "GİZ"in təşkilatçılığı ilə «Qadın Sahibkarlıq» sərgisində iştirak;
- Təhsil sənədi əldə etmiş ərizəçilərin «Uğur hekayəsi» müsahibəsi təşkil edilmişdir.

**Sosial layihə:**

- "Paşa Holding"in maliyyə dəstəyi ilə cari ilin iyul ayında **"Qənnadçı-şirniyyatçı"** ixtisası üzrə qeyri-formal olaraq fəaliyyət göstərən sağlamlıq imkanları məhdud və ya öhdəliyində əlil övladı olan **16** qadının formal məşğulluğuna dəstək göstərilməsi məqsədilə qiymətləndirilmə həyata keçirilmişdir. İmtahanda uğurlu nəticə göstərən 13 ərizəçidən **9-u diplom**, **4-ü** isə müvafiq modullar üzrə **sertifikat** əldə etmək hüququ qazanmışdır.

**Beynəlmilləşmə:**

- "Azərbaycanda qeyri-formal və informal təhsilin tanınması" prosesinin təşkili ilə bağlı Avropa Birliyinin Avropa Təlim Fonduna (ETF) **müsahibə verilmişdir.**
- Qeyri-formal öyrənmə üzrə qiymətləndirmə ilə bağlı **ETF ölkələrarası tədqiqatı**: Azərbaycan-qeyri-formal və informal təhsilin tanınması qısa şəkildə (ETF cross-country study on validation of non-formal learning: Azerbaijan –Validation of non-formal and informal learning in a nutshell).

**Planlar:**

- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində sözügedən sahədə **15 peşə ixtisası** üzrə Bakıda və regionlarda fəaliyyət göstərən **548 fermerin sertifikatlaşdırılması;**
- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Penitensiar Xidmətlə əməkdaşlıq çərçivəsində penitensiar müəssisələrdə **cəza çəkən şəxslərin** peşə ixtisaslarını tanıtmaq üçün prosesə cəlb olunması;
- Agentliyə digər dövlət qurumları və özəl müəssisələrindən daxil olan sifarişlər əsasında prioritet ixtisasların müəyyən edilməsi;
- Cari ildə öyrənilmiş təcrübəyə əsasən qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək.

## 2.2. Keyfiyyət təminatı

- Akkreditasiya və lisenziya
- Təlim və metodologiya

### 2.2.1. Akkreditasiya və lisenziya

- **GDU** və **UTECA**-nın akkreditasiya qiymətləndirilməsi prosesi yekunlaşmış və Yekun Hesabatlar Akkreditasiya Şurasına təqdim olunmuşdur.
- **ADU, AU, AƏSMA, OYU** və **ADPU**-nun filiallarında Akkreditasiya Komissiyasının verdiyi tövsiyələrin icrasının monitorinqi aparılmış, hesabatları təqdim edilmişdir.
- **Polis Akademiyası, Bakı Ali Neft Məktəbi, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Naxçıvan Müəllimlər İnstitutu**nda Akkreditasiya Komissiyasının verdiyi tövsiyələrin icrasının monitorinqi aparılmış, verifikasiya sənədləri əldə olunduqdan sonra hesabatları təqdim ediləcəkdir.
- Ümumilikdə **15** ATM-də monitorinqlərin təşkil edilmişdir.
- Xüsusi karantin rejimi dövründə ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinə dair müvafiq qaydaların tələblərinə əməl olunmasının yoxlanılması məqsədilə I yarımil ərzində **137**, ikinci yarımil ərzində isə **584** məktəbdə monitorinq aparılmışdır.
- **Xəzər Universiteti**nin yeni **2** yeni ixtisasın açılmasına dair müraciəti əsasında ekspert komissiyası tərəfindən monitorinq keçirilmiş və nəticələrə dair müvafiq hesabat hazırlamışdır.
- 23 müəssisənin (məktəbəqədər, ümumtəhsil, orta ixtisas, və əlavə təhsil) müraciətləri əsasında təhsil fəaliyyətinin lisenziyalaşdırılması ilə bağlı rəyvermə prosesində iştirak olunmuşdur.
- Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə Qazaxıstan Respublikasının Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyi (IAAR) arasında **ikitərəfli anlaşma memorandumu** imzalanmışdır.
- 26 iyul tarixində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) və Türkiyə Respublikasının Ali Təhsildə Keyfiyyət Təminatı Şurası (YÖKAK) arasında **anlaşma memorandumu** imzalanmışdır.
- 13 oktyabr 2021-ci il tarixində Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Mərkəzi və Şərqi Avropa Şəbəkəsinin (CEENQA) Baş Assambleyasının onlayn formatda keçirilən iclasında Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) CEENQA-ya **tam hüquqlu üzv** seçilmişdir.

## 2.2.2. Təlim və metodologiya

- Ekspert bankına müraciət edən **350** namizədə "Keyfiyyət Təminatı Sistemi və Daxili Keyfiyyət Təminatı" (I modul) mövzusunda təlimlər keçirilmişdir.
- Birinci modulu uğurla tamamlamış **252** namizədə "Peşəkar Ekspertlik fəaliyyəti" (II modul) mövzusunda təlimlər keçirilmişdir.
- **22** ATM-in akademik və inzibati heyətinə "Akkreditasiya qiymətləndirilməsində ekspertlərin rolu" mövzusunda seminar keçirilib.
- Yeni Akkreditasiya Qaydaları, Ekspertlərin etik davranış kodeksi, Daxili Keyfiyyət Təminatı strukturunun nümunəvi əsasnaməsi və Ekspert bankına dair **təlimat** (bələdçi) xarakterli sənədlər hazırlanmışdır.
- Təlim ehtiyaclarının aşkar olunması məqsədilə **32** ATM-in akademik heyəti arasında anonim sorğu keçirilmiş və nəticələr təhlil olunmuşdur.
- **AzTU**-nun əməkdaşlarına daxili və xarici keyfiyyət təminatına dair 7 günlük, **AZMİU**, **SDU** və **UNEC**-in əməkdaşlarına isə xarici keyfiyyət təminatına dair 3 günlük təlimlər keçirilmişdir.
- Agentliyin Nizamnaməsinə uyğun olaraq Daxili və Xarici Keyfiyyət Təminatı sahəsində təlim xidmətlərinin göstərilməsi üçün 10 ali təhsil müəssisəsi ilə **əməkdaşlıq müqaviləsi** imzalanmış və qeyd olunan müqavilələr çərçivəsində təlim xidmətlərinin göstərilməsi davam etməkdədir.
- Agentliyin **Beynəlmiləlləşmə strategiyası** hazırlanmışdır. Sənəddə ENQA, INQAAHE, CHEA, CEENQA, TAICEP, SICI kimi beynəlxalq təşkilatlara üzv olmaqla, beynəlxalq təcrübənin uğurla öyrənilərək tətbiqi məsələsi prioritetlik təşkil edir.
- ATM-lərdə Daxili Keyfiyyət Təminatı ilə bağlı cari vəziyyəti müəyyənləşdirmək məqsədi ilə akademik heyət arasında **"Daxili Keyfiyyət Təminatı"** mövzulu sorğu keçirilmiş, **29 ATM**-dən ümumilikdə **778** nəfər akademik heyət iştirak etmişdir.
- Ölkə üzrə **40 ali təhsil müəssisəsi** arasında tələbə sorğusu keçirilmiş və sorğuda **20.729 tələbə** iştirak etmişdir.

## 2.3. Hüquqi təminat

- Hüquqi məsələlərin tənzimlənməsi

### 2.3.1. Hüquqi məsələlərin tənzimlənməsi

| Hazırda icraatı davam edən işlərin sayı | | |
|---|---|---|
| **Məhkəmə** | **TKTA** | **TN** |
| 1-ci instansiya | 250 | 18 |
| Apellyasiya instansiyası | 41 | 0 |
| Kassasiya instansiyası | 5 | 1 |

| TKTA-nın cavabdeh qismində çıxış etdiyi və yekunlaşmış işlər üzrə məhkəmə iclaslarının sayı | |
|---|---|
| **Məhkəmə** | **Baxış** |
| 1-ci instansiya | 260 |
| Apellyasiya instansiyası | 56 |
| Kassasiya instansiyası | 12 |

| TKTA-nın cavabdeh qismində çıxış etdiyi işlər üzrə qəbul edilən qərarların sayı | | | |
|---|---|---|---|
| **İşin məzmunu** | **1-ci instansiya** | **Apellyasiya instansiyası** | **Kassasiya instansiyası** |
| İddianın təmin edilməsi | 23 | 8 | 2 |
| İddianın rədd edilməsi | 73 | 38 | 8 |
| İddia qismən təmin edilib | 33 | 1 | 2 |
| İcraata xitam verilib | 61 | 4 | 0 |
| Sənədləri geri götürüb | 43 | 0 | 0 |
| İddia mümkünsuz sayılıb | 27 | 5 | 0 |

## 3. İl ərzində görülmüş digər işlər

- Məktəb inspeksiyası
- Ölkədə elmi-tədqiqat üzrə cari vəziyyətin təhlili
- PR/marketinq və HR

## 3.1. Məktəb inspeksiyası

- Mart-iyun aylarında Bakı, Sumqayıt, Abşeron, Mingəçevir, Gəncə, Yevlax, Bərdə, Lənkəran, Masallı, Cəlilabad bölgələrində yerləşən **24** məktəbdə **pilot inspeksiyalar**, cari tədris ilinin oktyabr-dekabr ayı ərzində Bakı şəhərində yerləşən **32** məktəbdə **real inspeksiyalar** keçirilmişdir.
- İnspeksiyanın 10 nəfərdən ibarət **daimi heyəti** qurulmuşdur.
- Daimi heyətə İngiltərənin "Tribal Education" şirkətindən dəvət olunan ekspertlər tərəfindən inspeksiyanın aparılmasında beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2 həftəlik intensiv təlimlər keçirilmişdir.
- TKTA tərəfindən inspeksiyasının aparılması məqsədilə 2021-ci ildə məktəb inspektoru vakansiyası üzrə imtahanlar keçirilmişdir. İmtahanlardan uğurla keçən **27 namizəd** təlimləndirilərək, sınaq inspeksiyalara cəlb olunmuşdur.

**İnspektor seçimi:**

- Ümumi müraciət: **3900**-dən çox
- Yazılı imtahana dəvət olunan: **451/3200**
- Müsahibəyə dəvət olunan: **103/451**
- Müsahibədən keçən: **36/103**
- Sınaq inspeksiyadan keçən: **26/36**

**Əsas inspeksiya alətləri**:

- dərsdinləmələr;
- heyətlə müsahibələr;
- zəruri məktəb sənədlərinə baxış;
- valideynlərlə fokus qrup intervyular;
- müəllim, şagird və valideynlər arasında sorğular;
- infrastruktur və maddi-texniki bazanın yoxlanılması;
- təhlükəsizlik və sanitariya-gigiyena vəziyyətinə baxış.

İnspeksiya ilə bağlı beynəlxalq ekspertlər tərəfindən inspeksiya komandasına **2 həftəlik** intensiv **təlimlər** keçirilmişdir.

## 3.2. Ölkədə elmi-tədqiqat üzrə cari vəziyyətin təhlili

- Azərbaycanda elmi-tədqiqat səviyyəsinin cari vəziyyətini müəyyənləşdirmək məqsədilə **Web of Science** və **Scopus** platformaları vasitəsilə əldə olunmuş məlumatlar əsasında təhlil aparılmış, ölkənin ümumi vəziyyəti və region dövlətləri ilə müqayisəsinə əsaslanan hesabatlar hazırlanaraq TN-ə təqdim edilmişdir.

## 3.3. PR/marketinq və İnsan resursları

- PR/marketinq
- İnsan resursları

### 3.3.1. PR/marketinq

- Sosial şəbəkələrdə izləyici sayı:
  Facebook – **18.400**, Instagram – **2.100**, Telegram – **600**, Twitter – **366**, Linkedin – **1131**
- Hesabat dövründə TKTA-nın rəsmi saytında qurumun fəaliyyətinə dair **113 pres-reliz** paylaşılmış, Media FM-də 3 ay müddətində məlumatlandırıcı çarx yayımlanmış, habelə **AzTV, İTV, ATV, Xəzər TV, Real TV** və **ARB 24 TV** kanallarına və radio FM-lərə müsahibələr verilmiş və **9 TV kanalı**nda qonaq qismində iştirak edilmişdir.
- 8 May tarixində ümummilli lider **Heydər Əliyevin doğum günü** (10 may) ilə bağlı **vebinar** keçirilmişdir.
- **"Məktəb inspektoru"** vakansiyası üzrə elanın daha geniş kütləyə çatdırılması və layihənin ictimaiyyətə tanıdılması məqsədilə videoçarx hazırlanmış və KİV-də genişmiqyaslı PR kampaniyası aparılmışdır.
- **Qeyri-formal və informal təhsilin tanınması** istiqamətində ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə xüsusi videoçarx hazırlanmışdır. Eləcə də, bu fəaliyyət istiqamətində KİV-də genişmiqyaslı PR kompaniyası həyata keçirilərək, radio yayımı üçün xüsusi sosial **reklam çarxı** hazırlanmışdır.
- DP məzunları ilə **"Beynəlxalq təhsil təcrübəsinin yerli təhsil sistemində tətbiqi imkanları"** mövzusunda **videokonfrans** təşkil olunmuşdur.
- 8 Noyabr **"Zəfər günü"** ilə bağlı tədbir keçirilmişdir.
- TKTA-nın yeni, daha təkmil veb-saytı ictimaiyyətə təqdim edilmişdir.
- TKTA-nın 2021-ci il və 2 illik fəaliyyətinə dair hesabatı hazırlanaraq, elektron formada ictimaiyyətə təqdim edilməsi planlaşdırılır.

### 3.3.2. İnsan resursları

- TKTA-nın **3** əməkdaşı TN və "**McKinsey & Company**" arasındakı əməkdaşlıq çərçivəsində təşkil olunan 6 aylıq "**Gələcəyin Liderləri Akademiyası**" adlı virtual pilot proqramından məzun olmuşlar.

- KPI-lar üzrə qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olduqları üçün Agentliyin **11** əməkdaşı vəzifədə irəli çəkilmişdir (onlardan 3-ü şöbə müdiri, 2-i isə departament direktorluğuna yüksəlmişdir).

- Agentliyin əməkdaşları "Python" və "R" ilə analitika, "SQL", "Excel", "İnsan resurları və elektron xidmətlər", "Marketinq", eləcə də "DMS-dən istifadə" ilə bağlı **təlimlərdə** iştirak etmişlər.

- Hesabat dövrü ərzində işə qəbul üçün ümumilikdə **7500**–dən artıq namizədin CV-si nəzərdən keçirilmiş, onlardan təqribən **197**-si ilə müsahibələr təşkil edilmişdir. Nəticə olaraq, **19** əməkdaş müxtəlif vakansiyalar üzrə işə qəbul edilmişdir.

- Struktur bölmələr arasında kommunikasiya və əməkdaşlararası ünsiyyətin inkişafı məqsədi ilə **"Şöbəni tanı"** layihəsi həyata keçirilmiş, korporativ şam yeməyi, Nabran və Siyəzən rayonlarına korporativ gəzinti və səhər yeməyi "team building"ləri təşkil edilmişdir.

AZ1060, Bakı, Azərbaycan,
Q.Qarayev pr. 2B.,
**Telefon:** (+994 12) 599-11-55
**E-poçt:** info@tkta.edu.az
www.tkta.edu.az